Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Qəlbi min bir mahnı olan şair Vüqar Əhməd

**Vüqar Əhmədin 55 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Qəlbi min bir mahnı olan şair Vüqar Əhməd:** Vüqar Əhmədin 55 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018.-19 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Günəş min illər bundan əvvəl də beləcə doğur, şəfəqi və baxışı ilə torpağımızı oxşayırdı. Göylər min il əvvəl də beləcə duru və işıqlı idi. Min illər boyunca bu torpaqdan baş qaldıran, xalqımızın qəlbində pöhrələyən Qorqudlar, Füzulilər, o duruluğa, o işığa üz tutub "poeziya" adlı möcüzə yaradırdı. Əfsunçular, şaman və ozanlar sözün tilsimkar gücünə, ilahi nəfəsinə güvənirdi. Və "atəşlə suyun görüşdüyü" ulu torpaqda – qədim Odlar Yurdu Azərbaycanda dünyanın şeir ağacı kök bağlayır, tumurcuq işığıyla gülümsəyirdi...

Poeziya ən çətin sənətlərdən biridir. Bəlkə də yeganəsidir. Yalnız ona görə yox ki, o söz sənətidir. Onun xüsusi qanunları vardır, insandan peşəkarlıq və bacarıqdan başqa bir də ilahi vergi, istedad istəyir. Həm də ona görə ki, onu seçən, özünü ona həsr edən şəxsdən bu sənətin məsuliyyətini, nəcib məqsəd və ideallarını, fəlsəfəsini dərin və geniş dərk etməyi tələb edir.

Şeir ürəyin, beynin kardioqramıdır. Şeir yalnız ürəyin yox, həm də ömrün cövhəridir. Xoşbəxt o şairdir ki, xalqını təmsil edə bilir, bu halda onun ilham vergiləri yalnız özünün deyil, bütün ulusun, yurdun mənəvi kardioqramına çevrilir... Vüqar Əhməd bizim bütövlükdə XX əsr ədəbiyyatımızda bir məktəbdir.

Bu il Vüqar Əhmədin 55 yaşı tamam olur. Yubiley münasibətilə tərtib olunmuş bu vəsait iki hissədən ibarətdir. I hissə *"Nə yaxşı ki, əyilmədim mən yada"* adlanır və ədibin həyat və yaradıcılığından bəhs edir. II hissədə isə yubiley münasibətilə kitabxanalarda keçiriləcək tədbirlər öz əksini tapır. Vəsaitin sonunda məlumat biblioqrafiya şöbəsi tərəfindən hazırlanmış ədəbiyyat siyahısı da verilmişdir ki, Vüqar Əhməd yaradıcılığına müraciət edənlər bu biblioqrafiyadan yararlana bilərlər.

## I hissə: Nəğməkar şair

Vüqar Əhməd 1963-cü il aprel ayının 17-də Bakı şəhərində hərbçi-dənizçi, ziyalı ailəsində anadan olub. Soykökü Sultan Əhməd xanədanına mənsubdur. Ulu babası doktor Kərbəlayi Mirmahmud bəy Pirşağıda, babası həm həkim, həm də ilhiyyatçı Məşədi Soltan Əhməd Bakıda, ana babası ictimai xadim Kərbəlayi Əzim Binəqədidə nüfuzlu şəxsiyyətlər olmuşlar. 1984-1987-ci illərdə Şamaxı rayonu Dərəkənd kəndində Azərbaycan dili və ədəbiyyat müəllimi işləyib. Müxtəlif illərdə "Novruz" qəzeti və "Azərbaycan dünyası" nəşriyyatlarında baş redaktor, Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar Komitəsinin sədr müavini vəzifəsində, 1987-ci ildən – 2006-ci ilə kimi Azərbaycan Teleradiosunda məsul vəzifələrdə çalışıb. Hazırda AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisidir. 2005-2011-ci illərdə AMİ-nin professoru olmuşdur. Rəhbərliyi altında gənc alimlər yetişməkdədir. 1980-ci ildə Bakıdakı M.Müşfiq adına 18 saylı orta məktəbi, 1984-cü ildə indiki ADPU-nu fərqlənmə diplomu ilə, 1990-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetin aspiranturasını bitirib. 1992-ci ildə filologiya elmləri namizədi, 2005-cü ildə isə filologiya elmləri doktoru elmi dərəcəsi alıb. "Rus uşaq ədəbiyyatı və Azərbaycan" (Bakı, 1992), "Mircəfər Pişəvərinin həyat mühiti və yaradıcılığı" (Bakı, 1998), "Azərbaycan uşaq ədəbiyyatı" (Bakı, 2006), "Ədəbiyyatşünaslıq" (Bakı, 2007), "Anam mənim" (Tehran, 2008), "Ş.M.Xiyabani" (Bakı, 2010) və s. kimi 30 kitab və 300-dən çox elmi, publisistik məqalə müəllifidir. Əsərləri İran, Türkiyə, Yunanıstan, Almaniya və digər ölkələrdə çap olunub. Nəğməkar şair kimi 500-dən çox mahnının söz, eləcə də musiqi müəllifidir. Filologiya elmləri doktoru, professor, Nyu-York EA-nın həqiqi üzvü, eləcə də Azərbaycan Yazıçılar və

Jurnalistlər birliklərinin, Dərbənd Ədiblər Birliyinin “Muğam” assosiasiyasının, Bakı şəhəri icra hakimiyyəti ali mədəniyyət şurasının üzvüdür. Dünya Azərbaycanlıları Konqresinin sədr müavinidir. Üç roman və 10 şeir kitabının, yüzlərlə teleradio verilişinin müəllifidir. İki dərslik, iki tədris proqramı çap olunub. AMEA-da ədəbiyyatşünaslıq üzrə dissertasiya şurasının üzvüdür. “Qızıl Qələm”, AHİK-nın (2 dəfə) və AMEA-nın “Fəxri Fərman”ları ilə təltif olunmuşdur. “Araz” ali ədəbi, “Abdulla Şaiq”, “Məmməd Araz”, “İlin nəğməkar şairi”, 2 dəfə “Zirvə”, “İlin mahnısı”, “Simurq” və s. mükafatların laureatıdır. 50 illiyi ilə əlaqədar “Vüqar Əhmədin yaradıcılıq yolu” adlı monoqrafiya yazılmış, telekanallar tərəfindən silsilə verilişlər və filmlər lentə alınmışdır. Müxtəlif illərdə Moskva, Tehran və İsveçdə yaradıcılıq gecələri keçirilib. Dəfələrlə Asiya və Avropa ölkələrində beynəlxalq elmi konfranslarda məruzələr edib. Eyni zamanda “Azad Azərbaycan” Teleradio Şirkəti Bədii Şurasının üzvüdür. Azərbaycan Milli Dram Teatrının ilk direktoru və baş rejissoru – repressiya qurbanı Bilal Əhmədin qardaşı nəvəsi, ixtiraçı alim-fizik Əhməd Əhmədin, eləcə də bəstəkar, şair-dramaturq Mövsüm Əhmədin kiçik qardaşıdır.

Nəğməkar şair Vüqar Əhmədin “Ağ saçlı palma”, “Aktyorun rus uşaq ədəbiyyatı”, “Hər kəsin öz səsi” (elmi məqalələr toplusu), “Şahnaz sədası”, “Səsi Quran sədasıdı”, “Mənim nəğmələrim”, “Saf su” (İ.Hüseynov), “Ürəyimdə oxuyuram”, “Söz, musiqi, bir də mən”, “Yaxşı günlər öndədir”, “Cənubi Azərbaycan poeziyasında yeni mərhələ”, “Əfsanəvi tarzən”, “Elmi-filoloji qaynaqlar, ədəbi simalar haqqında düşüncələr”, “Şeyx Məhəmməd Xiyabaninin həyatı, mühiti və ədəbi fəaliyyəti”, “Nəğməli dünyam”, “İlhamım gələndə”, “Qarabağ yuxusu və yaxud yuxuda qələbə”, “Son nəfəsədək Azərbaycan” və s. adlı kitabları vardır.

## II hissə: Yubileylə bağlı keçirilən tədbirlər

İstedadlı şairimiz Vüqar Əhmədin anadan olmasının 55 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər, kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, şair ilə görüş keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil oluna bilər: "Nəğməkar şair Vüqar Əhməd", "Qəlbi min bir mahnı olan şair", "Bir də nəğmə yazan gözəl qələmim", "Söz, musiqi, bir də mən", "Gözəldi bu dünya şeirləşəndə", "Ədəbiyyatda öz deyim və yazı dili olan adam", "Poeziya pərvanəsinə çevrilən insan" və s.


















***Görkəmli şəxslərin Vüqar Əhməd haqqında söylədikləri fikirlər:***

Yaradıcılığını izlədiyim qələm, söz sahiblərindən biri də Vüqar Əhməddir. "Gözəl məkan-Nəqşicahan" istirahət mərkəzində şairin yaradıcılıq gecəsində iştirakımdan çox məmnunam. Şairin təzə şeirlərini dinlədim, çox gözəldir. O, bizim klassiklərə, yaşlı nəslə mənsub şairlərin yaradıcılığına hər zaman həssas yanaşmış, onların poeziyalarından bəhrələnmiş, və poeziyamıza öz töhfəsini vermişdir. Şeirlərini nəğmə üstə yazan şairin öz deyim və yazı dili var, heç kimi təkrarlamır. Vüqar poeziyamızda öz inamlı addımlarını atır.

**Məmməd Araz,**
*Xalq şairi*

Vüqar Əhmədin qələmi hər birimizə doğmadır. O, ürəyi, o, qələmin hökmünə, gücünə heyran olan bir alim kimi V.Əhməd poeziyasına səcdə edirəm. Qoy poeziya ilə döyünən ürək heç zaman susmasın.

**Rafiq Xan-Sayadoğlu,**
*Nyu-york Elmlər Akademiyasının həqiqi üzvü*

Vüqar Əhməd sağlığında özünə iz açıb. O, iz hələ neçə-neçə nəsilləri düşündürəcək, neçə-neçə nəsil həmin poeziyanın pərvanəsinə çevrilib öz izlərini buraxmağa çalışacaqlar.

**Alim Nəbioğlu,**
*jurnalist*

Nəğməkar şairin yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, ***"Mən dünyayam"*** adlı *şeir müsabiqəsidir*. Kitabxanaçı ilk olaraq şairin bir neçə şeir kitablarını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən

etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hamı tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir.

**Kitabxanaçı:** 55 illik yubileyi ilə bağlı görkəmli və müsiqişünas Vüqar Əhmədin şəxsiyyəti, elmi və bədii yaradıcılığı haqqında danışmaq ürəkaçandır. Professor Vüqar Əhmədin yaradıcılıq spektri o qədər geniş və çoxşaxəlidir ki, onu xarakterizə etmək üçün təkcə ədəbiyyatşünas olmaq azdır, mənə elə gəlir ki, digər sahələri də bilmək gərəkdir. Sirr deyil ki, Vüqar Əhməd bəzi həmkarlarından fərqli olaraq, sözün həqiqi mənasında Azərbaycan cəmiyyətində geniş tanınan, sevilən və hörmət bəslənilən insandır. O, alim kimi də nüfuz qazanıb, nəğməkar şair kimi də qəlblərə yol tapıb, pedaqoq kimi də tələbələrin sevimlisinə çevrilib, musiqişünas kimi də özünü təsdiqləyib. Hesab edirəm ki, çoxsahəli yaradıcılıq istiqamətlərində peşəkarlıq nümayiş etdirməyin kökündə iki vacib şərt dayanır: İstedad və zəhmət. Əgər bunlar olmasa, yaradıcı insan məqsədinə çata bilməz. Vüqar Əhmədin xoşbəxtliyi və uğurlarının səbəbi ondadır ki, ona Allah tərəfindən istedad bəxş edilmişdir. Nəzərə alsaq ki, Vüqar Əhməd istedadı zəhmətdən güc alır, bu zaman onun uğurlarının səbəbi bizim üçün tam açıqlanar...

*Kitabxanaçının dəyərli məlumatından sonra I iştirakçı "Ağ dünyam mənim" adlı şeirini deməyə başlayır.*

Göydən qar yağır,
Sanki bir nağıl,

Hər yan nur saçır,
Ağ dünyam mənim.

Yerlər sürüşkən,
Göylər dəyişkən,
Necə gözəldi
Ağ dünyam mənim.

Qəlbdə məhəbbət,
Gizlicə, xəlvət,
Gözüm seyr edir,
Ağ dünyam mənim...

*II iştirakçı "Gözəl dünyamız" adlı şeirini deməyə başlayır.*

Bir göz qırpımında ötüşür illər,
Hərdən sevinc olur, bol olur qəmim.
Ən böyük mükafat- səhnədə güllər,
Bir də nəğmə yazan doğma qələmim.

Şöhrət tapır sözüm nəğmələşəndə,
Gərginəm kədərlə hey əlləşəndə,
Gözəldi bu dünya şeirləşəndə
Sanki bayram olur dost görüşəndə...

*III iştirakçı "Hər kəsin öz baxışı"adlı şeirini deməyə başlayır.*

Taleyin min rəng, min naxışı var,
Dumanı, çəni var, qar, yağışı var.
Bütün sevənlərin xoş alqışı var,
Hər kəsin dünyaya öz baxışı var.

Cavanın saçları ağarıb dümağ,
Dünya əbədidir bizlərsə qonaq,
Nə qədər deyərlər- mehriban olaq!
Hər kəsin dünyaya öz baxışı var...

*Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Vüqar Əhmədin 55 illik yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də **"Gözəldi bu dünya şeirləşəndə"** adlı oxucularla söhbətdir. Kitabxanaçı tədbir zamanı oxuculara ədibin kitabları haqqında məlumat verir.

**Kitabxanaçı:** Ana... Bu təkcə 2 sait, 1 samit səsin birləşməsindən əmələ gələn söz deyil. Ana bəşərdir, kürreyi-ərzdir, cənnətdir, həyat, sabaha ümdimizdir. Yaxşı ki, Vüqar Əhməd "Anam mənim"i yazdı. Çoxlarını ağlatdı, çoxlarına ana varlığını əvəzolunmazlığını, ilahiliyini, əlçatmazlığını sözün gücü ilə aşılaya bildi, ana adına abidə ucaltdı, analara qarşı olan biganəlik buzunu əritdi. "Anam mənim"i oxuyan hər kəs o, şeirdə öz anasını görür. Deməli, Vüqar Əhməd öz anasını, sənin ananı, mənim anamı, dərindən tanıyır, qəlb çırpıntılarını duyur və yaşadıqları hiss və həyacanı ümumiləşdirərək bizlərə təqdim edir və qəlbimizdə analara olan sevgimizi sonsuz fəzalara doğru aparır və o sonsuzluğun zirvəsində ideal Ana dayanır...

Şeir-ilhamdır, əzabdır. Vüqar Əhməd də əzablarla dolu həyatına baxmayaraq ilhamı ilə bacara bilmir. Rastlaşdığı haqsızlıqlar belə onun ilham mənbəyinə mane ola bilmir. Hər birimizə yaxın olan poeziyasının heyranları kimi o ilhamdan güc alırıq.

İlhamım gələndə coşur qələmim,
Dalğalı dəniz tək çırpının, qəlbim,
Şükr edir, Allaha dualı əlim,
İlhamım gələndə, ilham gələndə.

Həmişə ədəbiyyatşünas-alim, şair, publisist, musiqişünas olaraq böyük uğurları ilə tanınan Vüqar Əhmədin 2012-ci ildən ədəbi aləmə roman müəllifi kimi daxil olması təbii idi. Çünki onun poeziya və nəsr yaradıcılığında bədii təfərrüfat genişliyinə və sujet rəngarəngliyinə marağın olması istər-istəməz

hadisələrin daha geniş mahiyyətdə təxəyyül süzgəcindən keçirilməsinə meyli gücləndirdi. Bu baxımdan Vüqar Əhmədin "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" avtobioqrafik romanın (Bakı, 2012) yazılmasında deyilən cəhətlərin rolu az olmayıb.

Əsər müqəddəs ruh və ideyaların təbliği fonunda xalqımız, eyni zamanda vətənimiz üçün vacib olan məsələlərin əksi baxımından əhəmiyyətlidir. Romanda memuarçılıq tərzi üstünlük təşkil etsə də, bu ideya Qarabağ qələbəsi üzərində qərar tutur. Müəllif haqlı olaraq Qarabağ "Qələbə marşı"nın "söz-musiqi" kompleksində milli birlik düşüncəsinin vacibliyini irəli sürür. Ona görə də vicdanlı, vətənsevər insanların birliyi əsərdə ideyanı doğuran başlıca amil səviyyəsində təqdim olunur. Romanda müəllif qələbəyə vətəndaş və türk birliyinin reallıqları çərçivəsində yanaşır. Lakin əsərdə bəşəri konteksin mövcudluğu vətəndaş və türk birliyini dünya sülhsevər qüvvələrinin birliyi xətti ilə üst-üstə qoymağa imkan verir. Bu mənada müəllif dünya siyasi liderləri, nizami ordu və könüllü xalq qruplarını təcavüzkar Ermənistanla son döyüşdə müəyyən mövqe sıralarında problemə həm qlobal həm müstəvidə yanaşır, həm də qələbənin labüdlüyünü həmrəy olmaqla görür. Maraqlıdır ki, əsərdə hadisə, əhvalat və ideya yuxu, "modeli" üzərində qurulur. Bu "model" də müəllif paklığın və müqəddəsliyin möhtəşəmliyini əks etdirməklə, həm də ədəbi aləmdə türkün ruh birliyinin davamçısı rolunda çıxış edir. Yaradıcılığında hürriyyətə çağırış, vətən sevgisi ideyaları aşılayan XIX əsr türk ədəbiyyatının görkəmli nümayəndələri Ziya Paşa və Namiq Kamalın müxtəlif vaxtlarda yazdıqları, lakin adları və ideyaları eyni olan "Röya" əsərlərində olduğu kimi, V.Əhmədin "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" adlı romanında da sonluq yuxudan ayılma səhnəsi ilə bitir. Namiq Kamalın yuxusu İstanbulda dərya kənarındakı bağçada

yarımçıq qaldı. Ziya Paşanı Londondakı park gözətçisi, Vüqar Əhmədi isə adını və özünü dünyalar qədər istədiyi qızı yuxudan oyatdı. Maraqlıdır ki, hər üç əsərdə yuxuda görülənlər barədə fikir və mübahislər xüsusi yer alır və mənalandırır. Vüqar Əhməd vətən, torpaq, haqq yolunda birliyin qələbə yürüşünü yuxuda görsə də, həmin yuxuya oyanandan sonra belə mənalandırma verir: "Bircə onu bilirəm ki, bu yuxu olsa da, ruhum həqiqətən Qarabağa getmişdi. Bu arzu olunan, gerçəkləşən bir röya idi, əfsanəvi həqiqət idi. Mən inanıram ki, uca yaradan bu yuxunu gerçəyə çevirəcək və türk oğlu türk düşmənin burnunu ovub Qarabağı azad edəcək".

*Tədbirin sonunda oxucular ədibin şeirlərindən seçmələrlə çıxış edirlər.*

Müasir dövrün istedadlı şairi Vüqar Əhmədin yubileyi ilə əlaqədar olaraq, keçiriləcək tədbirlərdən biri də ***"Söz, musiqi, bir də mən"*** adlı *kitab müzakirəsidir*. Kitabda Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, "Məmməd Araz", "Füzuli" mükafatlarının laureatı, nəğməkar şair V.Əhmədin ədəbiyyatşünas alim və musiqi tədqiqatçısı kimi müxtəlif illərdə qələmə aldığı tədqiqatları, məqalələri, həmçinin müəllif haqqında tanınmış elm xadimlərinin fikirləri, kitablarına yazılan rəylər, müsahibələr toplanıb. Kitab ədəbi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**Kitabxanaçı:** M.C.Pişəvərinin həyatı, mühiti, yaradıcılığı ilə bağlı monumental tədqiqatı ilə ədəbiyyatşünaslığımıza öz inamlı imzasını atan və gənc bir tədqiqatçı-alim kimi özünü təsdiq edən Vüqar Əhməd təkcə nəğməkar şair deyil, həm də istedadlı ədəbiyyatşünas alim, musiqi tədqiqatçısı kimi çoxşaxəli yaradıcılığı ilə ədəbiyyatsevər, musiqi duyumlu ədəbi ictimaiyyətin diqqətini özünə cəlb edə bilmişdir. V.Əhmədin bir ədəbiyyatşünas alim və musiqi tədqiqatçısı kimi

yaradıcılığının məhsulu olan "Söz, musiqi, bir də mən" adlı kitabı tədqiqatçı-alimin müxtəlif illərdə qələmə aldığı məqalələr toplusudur. Kitab 7 bölmədən ibarətdir.

1. Ədəbiyyatşünaslıq;
2. Tehran türk musiqiləri;
3. Azərbaycan sənətçiləri müəllifinin tədqiqat obyektində;
4. Televiziyamıza baxış;
5. Vüqar Əhmədin kitablarına yazılmış rəylər;
6. Deyilən söz yadigardır;
7. Müsahiblərim.

"Ədəbiyyatşünaslıq" bölümünə daxil edilən "Böyük Füzulinin yadigarı mən özüməm" adlı məqalədə V.Əhməd oxuculara Əliağa Vahid haqqında dolğun məlumat verir.

"Söz gülləsi", "Ölməzlik nəğməsi", "Haqqın səsi", "Sözün sehri", "Keçid", "Nəbiyəm, bir dağam", "Həyata həssas münasibət", "Sözün sehri", "Keçid", "Gülləbaran eylədilər" və s. məqalələrdə V.Əhmədin Qabil, Xəzri, Ə.Cəfərzadə və başqa şair və yazıçıların kitablarına yazdığı rəylər öz əksini tapıb. "Tehran türk musiqiləri" bölümündə Vüqar Əhməd bir musiqi tədqiqatçısı kimi Tehran türk musiqiçiləri azərbaycanlı oxuculara təqdim edir. Belə bir uğurlu addım yalnız Vüqar Əhmədə məxsusdur.O, Aşıq Bulud, Rəsul Rəhimli Dizəçi, Nadir Cavadlı, Fərhad Fərəcli, Vəli Qasimi, İbrahim Xəzarayeri, Cabir İtaəti və s. sənətçilərin musiqili-ədəbi portretini yaradır, azəri musiqisinin təsiri altında uğurlar qazanan cənublu soydaşlarımızın həyatına işıq tutur.

"Azərbaycan sənətçiləri müəllifinin tədqiqat obyektində" bölümündə Vüqar Əhməd, Alim Qasımov, Elman Bədəlov, Əbülfət Əliyev, Ədalət Vəzirov, Hacı Tələt Qasımov, Niyaməddin Musayev, Şəfiqə Eyvazova və s. kimi görkəmli sənətkarların sənəti haqqında məlumat verir, onların yaradıcı məziyyətlərindən söz açır.

“Vüqar Əhmədin kitablarına yazılmış rəylər” bölümündə isə müəllifin “Ayineyi-millət”, “Rus uşaq ədəbiyyatı və Azərbaycan”, “M.C.Pişəvəri: “Həyatı, mühiti və yaradıcılığı”, “Hər kəsin öz səsi”, “Səyavuşun faciəsi”, “Şahmar sədası”, “Anam mənim” və alimin özünün həyat və yaradıcılığından bəhs edən “Vüqar Əhmədin söz dünyası” adlı monoqrafiyaya yazılmış rəylər toplanmışdır. Bu rəylərdə Vüqar Əhmədin ədəbiyyatşünas alim və musiqi tədqiqatçısı kimi fəaliyyəti söz sərrafları tərəfindən düzgün qiymətləndirilmişdir.

“Müsahiblərim” bölümündə Vüqar Əhmədlə olan müsahibələr, “Deyilən söz yadigardır” bölümündə isə tanınmış elm xadimlərinin alim haqqında fikirləri cəmlənmişdir.

“Söz, musiqi, bir də mən” adlı kitabı Vüqar Əhmədin bir alim və ədəbiyyatşünas alim və musiqi tədqiqatçısı kimi yaradıcılığının məhsuludur. Təəssüf edirəm ki, tədqiqatçı alimin bir çox maraqlı və dolğun məqalələrinə bu kitabda rast gəlinir. İnanırıq ki, bu yolda Vüqar Əhməd hələ neçə-neçə belə dəyərli kitablar yazacaq, tərtib ediləcək və öz oxucularını sevindirəcək.

Vətənpərvər şair Vüqar Əhməd 55 illik yubileyi ilə əlaqədar olaraq, keçirilən maraqlı tədbirlərdən biri də ***“Mən əyilməz bir dağam”*** adlı *şairlə görüşdür*. Gecədə şairin şəxsən özü ilə yanaşı, Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, professor, ədəbiyyatşünaslar, bəstəkar və müğənnilər, oxucular, məktəblilər və ümumilikdə sevgiyə, məhəbbətə, şeirə dəyər verənlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına Vüqar Əhmədin həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur. Daha sonra aparıcılar səhnəyə yaxınlaşır.

**I aparıcı:** Dəyərli qonaqlar, Vüqar Əhməd sevərlər, şeirə-sözə vurğun oxucular, bu gözəl şeirli, nəğməli, tədbirə xoş gəlmisiniz. Bu gün hamımız Vüqar Əhmədin 55 illik yubileyi münasibətilə onun nəğməli sədasına yığışmışıq. Onun keçdiyi şeir dolu ömür yoluna işıq salmaq üçün şairin bu söz dolu, misra dolu gecəsinə toplanmışıq. O, həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verən əsl şairdir. O, ahəngini Azərbaycanın dahi şairlərinin ahəngindən götürmüş bir şairdir.

Nəsimitək haqqa saldım meylimi,
Füzuliyəm, mən də sevdim Leylimi.
Xətaiyəm, sevdim ana dilimi,
"Dərya içrə qocaman dağ"-Sabirəm...

**II aparıcı:** Vüqar Əhmədin şeirlərinə 500-dən çox mahnı bəstələnib və bu mahnılar tamaşaçı və dinləyici auditoriyasının rəğbətini qazanmışdır. M.Araz mükafatı laureatı V.Əhməd şeirlərində dilimizin gözəlliklərini qoruyur və dilçiliyimizə daxil olan yabancı sözlərə qarşı həmişə barışmaz mövqedə dayanır. Bu da şairin şeirlərini daha oxunaqlı və yaddaqalan edir.

Gözüm gülür, qəlbim səssiz ağlayır,
Dərdlilərin dərdi məni dağlayır.
Nə yaxşı ki, təbim coşub çağlayır,
Məhəbbətdir Şahənşahım, sultanım.

**I aparıcı:** Bir ədəbiyyatşünas kimi, prof. Vüqar Əhmədin elmimiz qarşısında xidmətləri olduqca böyük və əhəmiyyətlidir. Onun ədəbiyyatşünaslıq fəaliyyətinin istiqamətlərini ümumi olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar: Klassik və müasir Azərbaycan ədəbiyyatı tarixi (o cümlədən Cənubi Azərbaycan ədəbiyyatı), Azərbaycan uşaq ədəbiyyatı, Azərbaycan-rus ədəbi

əlaqələri və ədəbiyyat nəzəriyyəsi istiqaməti. Göründüyü kimi, dövrləşmə və problematika baxımından genişliyi ilə fərqlənən ədəbiyyatşünaslıq fəaliyyəti ilə prof. Vüqar Əhməd bu elmi sahələrin inkişafında əhəmiyyətli rol oynamış və orijinal fikirlər söyləyə bilmişdir. Heç şübhəsiz o, bir tərəfdən XX əsrin əvvəlləri rus-Azərbaycan ədəbi əlaqələrinin tarixinə nəzər salır, bu konseptdə uşaq ədəbiyyatı problemlərinə aydınlıq gətirir, digər tərəfdən Azərbaycan uşaq ədəbiyyatının tarixi-tipoloji inkişafının ümumi mənzərəsi haqqında geniş təsəvvür yaradır, başqa bir tərəfdən isə S.C.Pişəvərinin həyat və yaradıcılığı əsasında Cənubi Azərbaycan ədəbi-ictimai, ədəbi-bədii və ədəbi-tənqidinin mahiyyəti ilə əlaqədar nəzəri-estetik mühakimələrini ortaya qoya bilir və s. Onun "M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı" adlı monoqrafiyası (1998) Cənubi Azərbaycanda gedən milli azadlıq və milli demokratik hərəkatın ictimai-siyasi zəmində inkişaf prosesi ilə yanaşı, həm də milli demokratik mətbuatın və ədəbiyyatın inkişaf problemləri haqqında müfəssəl tədqiqat əsəri hesab edilə bilər. Nəğməkar şair Vüqar Əhmədin bədii və elmi yaradıcılığı olduqca zəngindir. Onlarla sanballı monoqrafiya, dərslik, dərs vəsaiti, yüzlərlə məqalə, tezis, müsahibə, çoxsaylı bədii əsər müəllifi kimi tanınan Vüqar Əhməd bir alim, bir vətəndaş olaraq nəyi yazıbsa, ürəkdən yazıb, bütün yazdıqlarına şəxsi məsuliyyət möhrünü vura bilib.

**II aparıcı:** Bu səbəbdəndir ki, prof. Vüqar Əhmədin həm elmi, həm də yaradıcılığı Azərbaycan sərhədlərini aşaraq əcnəbi ölkələrdə də maraq doğurmuş, çap olunmuşdur. Əsərlərinin İran, Türkiyə, Yunanıstan, Almaniya, Rusiya və s. ölkələrdə çapı fikirlərimizi təsdiqləməyə kifayət edər. Bir çox ölkələrdə onun yaradıcılığına olan rəğbət və məhəbbətin (həm də ehtiyacın) şahidi oluruq. Azərbaycan xalqının Qarabağ həsrəti, Qarabağ dərdi və Qarabağ ehtiyacını bütün dünya bilir. Həsrət,

dərd və ehtiyacın bu və ya digər formada əksi Vüqar Əhmədin elmi-publisistik və bədii yaradıcılığında xüsusi bir xətt təşkil edir. Maraqlıdır ki, Vüqar Əhməd yaradıcılığında həmin ideyaların tərənnümçüsü yox, həm də təbliğatçısıdır. Moskvada, Tehranda, İstanbulda və s. yerlərdə şairlə keçirilən Qarabağ problemləri çıxışlarının baş mövzusuna çevrilir. Vüqar Əhməd yaradıcılığının bu istiqaməti ilə tanışlıq onu deməyə əsas verir ki, dərdin böyüklüyü ilə poeziya qəliblərinin "izhar ölçüləri" arasında "uyğunsuzluq" şairin romanların keçidinə təkan verir. Görünür, böyük dərdin böyük janrlarda ifadə zəruriyyəti ifadə zərurətinin (həm də ehtiyacın) yaranmasının kökündə dayanan səbəbdən biri də budur.

**I aparıcı:** Bu günlərdə Vüqar Əhməd ömrünün ən gözəl çağlarını yaşayır. 55 yaşda görkəmli ədəbiyyatşünas alim olmaq, istedadlı şair kimi tanınmaq, musiqi dünyasının ənginliklərinə baş vurmaq hər kəsə nəsib olmur.

Vüqar Əhməd kökü dərin, budaqları göyə şaxələnən, dibi kölgəli nəhəng palıd ağacına bənzəyir sanki. Arzu edirik ki, bu kölgənin yaratdığı sərinlikdə bundan sonra hər 10 ildən bir beş dəfə də yubileyinizə dəfələrlə gəlmiş qonaqlarınızı, onların ürək sözlərini və təbriklərini qəbul edəsiniz... Vüqar Əhməd ömrünün 55-ci baharını adladı. İnanırıq ki, bundan sonra da o, bir alim kimi oxucularını elmi əsərləri, nəğmələri və şeirləri ilə sevindirəcək.

Məhəbbətdir bu dünyada ən əziz,
Həmsöhbətim mavi Xəzər-göy dəniz.
Müdrik olun, nə qul olun, nə kəniz
Ay, qardaşlar, ay bacılar, sizləyəm.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Anam mənim : poeziya. - Bakı : Araz, 2002. - 24 s. - (Min bir mahnı).

İlhamım gələndə...: poeziya. - Bakı : Min bir mahnı, 2003. - 160 s.

Saf su : İsmayıl Babayevin 65 illik yubileyinə həsr olunur. - Bakı : EL-ALliance, 2003. - 160 s.

Söz, musiqi, bir də mən... - Bakı : Min bir mahnı, 2003. - 272 s.

***Kitablarda***

Şeyx Məhəmməd Xiyabani (1879-1920) // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XIX- XX əsrlər). 2 cilddə. - Bakı : Qanun, 2013. - C.2. - S. 139--156. - S.156.

Məmmədəli Manafzadə Sabit (1888-1940) // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XIX- XX əsrlər). 2 cilddə. - Bakı : Qanun, 2013. – C.2. – S.197-208.

Seyid Cəfər Pişəvəri (1892-1947) // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XIX- XX əsrlər). 2 cilddə. - Bakı : Qanun, 2013. - **C.2**. - S. 283-302. - Biblioqr. - S.302.

***Haqqında***

**Vüqar Əhməd -** 50 / Azərbaycan Yazıçılar Birliyi // Ədəbiyyat qəzeti. - 2013. - 5 aprel. **- № 12**. - S. 7.

# Qəlbi min bir mahnı olan şair Vüqar Əhməd
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır: 30.03.2018
Tirajı:100
Pulsuz